






# Karantin qaydalarını pozanlar qanun qarşısında cavab verəcəklər

Bu günlərdə karantin rejimi tələblərinin vəzifəli şəxslər və məmurlar tərəfindən pozulması haqlı olaraq cəmiyyətdə narazılıqla qarşılanıb. Lakin bu hadisə bir daha göstərdi ki, vəzifəsindən və kimliyindən asılı olmayaraq qanunların ziddinə gedən hər kəs qanun qarşısında cavab verəcək.

Bununla bağlı Milli Məclis deputatlarının mətbuatda və sosial şəbəkələrdə dərc olunmuş açıqlamalarını təqdim edirik.

## Hamı qanunun tələblərinə əməl etməlidir

**Hicran HÜSEYNOVA,**
*Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri:*

- Pandemiya elan olunduğu ilk gündən dövlətimiz nizamlı və sistemli formada koronavirus infeksiyasına qarşı mübarizə tədbirləri həyata keçirib. Prezident İlham Əliyevin göstərişi ilə Nazirlər Kabinetinin pandemiya ilə mübarizə məqsədilə təsdiqlədiyi Tədbirlər Planının icrası uğurla gerçəkləşir. Onun nəticəsidir ki, görülən bütün lazımi qabaqlayıcı tədbirlər, tətbiq olunan qadağalar öz müsbət nəticəsini verib və verməkdədir. Vaxtında görülmüş tədbirlər nəticəsində başqa ölkələrdən fərqli olaraq xalqımız bu vəziyyətdən az itkilərlə çıxır və ölkəmizdə koronavirus nəzarət altında saxlanılır. Vəziyyətə həssaslıqla yanaşan dövlətimiz müsbət dinamikanın daha da yaxşılaşdırılması üçün kütləvi tədbirlərin keçirilməməsi, məsafədən idarəetmənin təşkili, sanitar qaydalara əməl etməyi xüsusi tələb kimi qoyub və müvafiq qanunvericilik aktları mövcud vəziyyətə uyğunlaşdırılıb. Xüsusilə də insanların daha çox toplaşa biləcəyi beynəlxalq və yerli tədbirlərin, idman yarışlarının, dini mərasimlərin, toy və yas məclislərinin keçirilməsi qadağan edilib. Dövlətin tətbiq etdiyi ciddi karantin rejimi ilə yanaşı, həm Prezident İlham Əliyev, həm də Birinci vitse-prezident Mehriban xanım Əliyeva xalqımıza müraciət edərək qaydalara əməl etməyi, infeksiyadan qorunmaq üçün bütün mümkün vasitələrdən istifadənin vacibliyini tövsiyə ediblər.

Bu baxımdan hər bir vətəndaşın, xüsusilə də deputatların, dövlət qulluqçularının vəzifəsi karantin rejiminə nəinki riayət etmək, həm də şəxsi nümunə olmaqdır. Təəssüf ki, karantin rejiminin yumşaldılması bir qrup insanda arxayınlıq hissi yaradıb. Azərbaycan hüquqi dövlətdir, ölkəmizdə qanunun aliliyi təmin edilib, heç kim qanundan üstün ola bilməz. Hamı qanun qarşısında bərabərdir və öz hərəkətlərinə görə məsuliyyət daşıyır. Bu sırada bəzi vəzifəli şəxslərin, məmurların müxtəlif toy mərasimləri təşkil etməsinə dair məlumatlar cəmiyyətin hiddətinə səbəb olub və ciddi qınağına məruz qalıb. Müvafiq qanunvericiliyə görə, daxili işlər orqanları xüsusi karantin rejiminin tələblərini pozaraq əyləncə təşkil edən, toy, yas mərasimləri keçirən xeyli sayda şəxsi məsuliyyətə cəlb edib, izahat və maarifləndirmə işləri aparırlar. Düşünürəm ki, bizim hər birimiz belə hallara qarşı barışmaz mövqe göstərməli, qanun, karantin qaydalarına ciddi şəkildə əməl edərək xalqımızın, dövlət müstəqilliyimizin qorunmasına çalışmalıyıq. Biz yalnız bir mövqedə - dövlətçilik mövqeyində olmaqla müstəqilliyimizi və xalqımızın təhlükəsiz, firavan həyatını təmin edə bilərik.

Dövlət başçısı ölkədə qanunun aliliyinin qarantıdır, hər kəsin qanun qarşısında məsuliyyəti və cavabdehliyi ali iradənin tələbidir. Heç bir şəxs öz mövqeyindən, statusundan istifadə edərək qanunun tələblərini poza bilməz. Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasət müstəqil, qüdrətli Azərbaycanın naminə xalqımızın xoşbəxt gələcəyinə yönəlib.

## Heç kim tutduğu mövqeyə, vəzifəsinə görə cəmiyyətə hörmətsizlik edə bilməz

**Cavid OSMANOV,**
*Milli Məclisin deputatı, YAP Ağdaş Rayon Təşkilatının sədri:*

- Koronavirus infeksiyası hələ də bəşəriyyəti təhdid etməkdədir. Ötən ilin sonlarından indiyədək 23 milyondan artıq insanın yoluxması, 800 mindən çox insanın ölümü virusun kifayət qədər təhlükəli olmasına dəlalət edir. Virusa qarşı peyvəndin tapılmadığı indiki şəraitdə bu xəstəlikdən qorunmağın yeganə yolu insanlar arasındakı təmasları azaltmaq üçün tətbiq edilən karantin rejiminin qaydalarına əməl etməkdir.

Respublikamızda ilk vaxtdan vəziyyət düzgün dəyərləndirildi, Prezident İlham Əliyevin göstəriş və tapşırıqları ilə koronavirus infeksiyasının yayılmasının qarşısını almaq üçün ciddi mübarizə tədbirləri görüldü. Prezident İlham Əliyevin koronavirusla mübarizəni xüsusi diqqət mərkəzində saxlaması, Birinci vitse-prezident Mehriban Əliyevanın insanlara müraciəti, sosial təşəbbüsləri göstərir ki, Azərbaycan hakimiyyəti virusa son qoyulması üçün əlindən gələni edir. Lakin təəssüflə qeyd etməliyik ki, vətəndaşlar tərəfindən son vaxtlarda karantin rejimi tələblərinin pozulması hallarına da rast gəlinir. Belə əməllərin vəzifəli və rəsmi şəxslərin, ictimaiyyətin yaxından tanıdığı insanların iştirakı ilə törədilməsi isə xüsusilə təəssüf doğurur, haqlı olaraq bütün cəmiyyət tərəfindən etirazla qarşılanır.

Bu günlərdə Novxanı qəsəbəsində uzun illər Prezident Administrasiyasının rəhbəri olmuş, hazırda Milli Elmlər Akademiyasına rəhbərlik edən Ramiz Mehdiyevin vəzifəli şəxslərin və məmurların iştirakı ilə nəvəsinin toy mərasiminin keçirilməsi cəmiyyətimizin bütün təbəqələrinin narazılığına səbəb olması tamamilə başa düşüləndir. Uzun illər dövlət idarəçiliyində çalışmış bir şəxsin belə bir qanunsuzluğa yol verməsi təəssüf doğurmaya bilməz.

İlk növbədə, dövlət məmurları, vəzifəli və rəsmi şəxslər öz əməlləri ilə ölkədə həyata keçirilən siyasətə, karantin rejiminin tələblərinin yerinə yetirilməsinə xidmət etməli, başqalarına nümunə olmalıdırlar. Çünki həmin şəxslərə etimad göstərilərək olduqca məsul dövləti vəzifələr, insanları seçkili orqanlarda təmsil etmək, vətəndaşların hüquqlarını qorumaq məsuliyyəti həvalə olunub. Lakin əvəzində bəzən biz onlar tərəfindən dövlətin qanunlarının tapdalanmasını, cəmiyyətə və insanlara hörmətsizlik görürük. Bütövlükdə isə vəzifəli şəxslərin, dövlət məmurlarının bu hərəkəti ölkə Prezidentinin siyasi xəttinə kölgə salmaq cəhdindən başqa bir şey deyil.

Həmin mərasimdə uzun illər Bakı Dövlət Universitetinin rektoru olmuş Abel Məhərrəmovun akademik adına xələl gətirən çıxışı haqlı olaraq etirazla qarşılanır. Müasir Azərbaycan dövlətinin bütün uğurları Ulu Öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin adı ilə bağlıdır. Ramiz Mehdiyev isə ona həvalə olunan vəzifənin icrası ilə məşğul olub.

Azərbaycan hüququn və qanunun aliliyinin təmin edildiyi bir dövlətdir. Prezident İlham Əliyev çıxışlarında dəfələrlə qeyd edib ki, hər bir vətəndaş qanunlara ciddi əməl etməlidir və heç kəs tutduğu vəzifəyə görə imtiyaz sahibi deyil. Bu baxımdan toy mərasimində iştirak edən vəzifəli şəxslərin cəzalandırılması və ümumən, həmin mərasimlə bağlı ciddi ölçülərin götürülməsi bir daha göstərdi ki, hər kəs qanun qarşısında bərabərdir. Və heç kim səlahiyyətlərindən, vəzifəsindən istifadə edib qanunları poza bilməz. Qanunu pozanlar isə mütləq qanun qarşısında cavab verirlər və verəcəklər.

Bu hadisə bir daha göstərdi ki, hər bir şəxs mövcud reallığı, qanunların aliliyini, Azərbaycan Prezidentinin mövqeyini və ali iradəsini bilməli və başa düşməlidir ki, qanun pozuntusuna görə mütləq şəkildə cavab verməli olacaq. Koronavirusla mübarizə isə ümummilli təhlükəsizlik məsələsidir, heç kim şəxsi mənafeyi naminə, tutduğu mövqeyə, vəzifəsinə görə insanların həyatını təhlükəyə ata və onların sağlamlığına zərər gətirə bilməz. Yəqin ki, məlum toy mərasiminin iştirakçıları da bu reallığı dərk etdilər və başa düşdülər ki, heç vaxt qanunlardan üstün ola bilməzlər.

## Akademikliyi dəyərsizləşdirən tost

**Hikmət MƏMMƏDOV,**
*Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru:*

- Qanun mənə şamil edilə bilməz, yaxud virus mənə yoluxa bilməz düşüncəsi eyni məntiqsizliyə söykənir və hər ikisi cahillikdir. Azərbaycanda hüquqi dövlət ona görə yaradılmayıb ki, kimlərinsə qanunu pozmaları ört-basdır edilsin. Tam əksinə, ona görə yaradılıb ki, qanunu pozanlar hüquqi məsuliyyətə cəlb edilsinlər. Bunu hamıdan yaxşı hüquqşünaslar bilir, ya da bilməlidirlər. Qanun qarşısında hamı bərabərdir.

Ancaq müəyyən sosial zümrə var ki, qanunlara daha ciddi riayət etməklə həm də nümunə yaratmalıdırlar. Bu zümrə cəmiyyətdə yüksək sosial statusa malik olan və müxtəlif strukturlarda vəzifə tutan şəxslərdir. Çünki onlar daim ictimai diqqətin mərkəzində olurlar və daha çox ictimai məsuliyyət daşıyırlar. Ona görə də qanun pozuntusuna görə vətəndaşların hüquqi məsuliyyəti də bir növ kateqoriyalandırılır. Məsələn, eyni qanun pozuntusuna görə fiziki şəxslər az, vəzifəli şəxslər bir qədər çox, hüquqi şəxslər isə daha çox məsuliyyət daşıyır və uyğun olaraq cərimələnirlər. Hər bir vətəndaşın sosial statusu artdıqca, adekvat olaraq onun sosial məsuliyyəti də, qanun qarşısında cavabdehliyi də artır.

Hazırda pandemiyaya qarşı mübarizə bizi karantin adlandırdığımız xüsusi rejimdə yaşamağa məcbur edib və bu ictimai mənafeyimiz baxımından olduqca vacibdir. Belə olan halda Operativ Qərargahın qəbul etdiyi qaydalara riayət etmək hər bir vətəndaşın ümdə vəzifəsinə çevrilir. Belə zamanlarda cəmiyyətdə ictimai həssaslıq daha da artır və diqqət müvafiq sosial zümrənin üzərinə fokuslanır. Həmin zümrənin nümunəvi olması belə zamanlarda daha da aktuallaşır.

Bu günlərdə kifayət qədər tanınmış, sabiq deputat İlham Əliyevin ailəsində təşkil edilmiş toy mərasiminə və orada iştirak edən qonaqların sosial məsuliyyətinə ictimai reaksiyanın belə kəskin olması da haqlı olaraq bununla əlaqədardır. Çünki söhbət həm də akademik Ramiz Mehdiyevdən, uzun illər olduqca məsuliyyətli vəzifələr daşımış, hazırda isə Milli Elmlər Akademiyasına rəhbərlik edən bir şəxsdən gedir.

Hazırda ictimai rəyi emosional şəkildə məşğul edən sual bundan ibarətdir ki, belə həssas dönəmdə qadağan olunmuş tədbirin keçirilməsində məqsəd nə idi? Toy edənlər bu hadisənin ictimai rəydə necə kəskin etiraz doğuracağını, doğrudan da, hesablaya bilməmişdilər? Bu hadisənin indiki vaxta ümumi maraqlarımız baxımından kimin lehinə olacağını düşünməmişdilərmi? Təəssüf doğuran məsələlərdən biri də cəmiyyəti belə lüzumsuz bir sualla üz-üzə qoymaqdır. Ona görə də əgər hesab edilibsə ki, bu mərasimdən heç kəs xəbər tutmayacaq, ona görə də qanunu gizli şəkildə pozmaq olar, bu, mənəvi sadəlövhlükdür. Yox, əgər bizim bilmədiyimiz daha başqa məqsədlər olubsa, bu daha da pis.

Məsələnin ən xoşagəlməz tərəflərindən biri isə bəzi qonaqların öz açıqlamaları ilə ictimai rəyi provakasiya etmələridir. Milli Məclisin komitə sədri, YAP İcra katibinin müavini Siyavuş Novruzovun "kimlər çəkib tapılacaq", yaxud "çağrılmışam, necə getməyim?" kimi fikirləri xalqımızın milli-mənəvi dəyərlərini istismar etməkdir. Təəssüf doğuran başqa bir məsələ isə uzun illər BDU-ya rəhbərlik etmiş bir akademikin, Abel Məhərrəmovun ictimai rəydə ikrah doğuran fikirlər səsləndirməsidir. Belə fikirlərdən sonra ziyalılığın, akademikliyin meyarları itir, bu dəyərlər dəyərsizləşir.

Pandemiya bir müharibədir və bu müharibədə hamımız birmənalı şəkildə milli iradəmizin legitim təmsilçisi Prezident İlham Əliyevin yanında olmalıyıq. Qanun onu pozanların hamısına, deputatına da, vəzifəli şəxsinə də, aliminə də eyni dərəcədə şamil edilməlidir.

## Heç kimin əlahiddə səlahiyyəti yoxdur

**Elman NƏSİROV,**
*Milli Məclisin deputatı, YAP Beynəlxalq əlaqələr komissiyasının katibi:*

- Sərt karantin rejiminin kobud şəkildə pozulması ilə müşayiət olunan hadisə, yəni akademik Ramiz Mehdiyevin nəvəsinə toy məclisinin keçirilməsi çox böyük təəccüb və təəssüf hissi doğurdu.

Xeyli vaxtdır ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında dünyanı hədəfə almış koronavirus pandemiyasına qarşı olduqca ciddi tədbirlər həyata keçirilməkdədir. Bu tədbirlər öz xarakter etibarilə həm önləyici, sistemli, ardıcıl tədbirlərdir və eyni zamanda milli, regional xarakterli olmaqla qlobal məzmun kəsb edir.

Bu tədbirlərdə əsas məqsəd, ilk növbədə, Azərbaycan vətəndaşının sağlamlığını qorumaqdır. Eyni zamanda onun sosial müdafiəsi istiqamətində addımlar atmaq, iqtisadiyyatın davamlılığını qoruyub saxlamaq deməkdir. Bu cür çox mürəkkəb və qəliz məsələlərin öhdəsindən gəlmək üçün ölkə Prezidentinin siyasi iradəsi ortadadır. Xalq birliyi, vətəndaş həmrəyliyi var, eyni zamanda bu prosesdə intizam və məsuliyyət məsələləri çox böyük əhəmiyyət kəsb edir. Təəssüf hissi ilə qeyd etmək istəyirik ki, bəzi şəxslər özlərini qanundan üstün tuturlar, özlərini imtiyazlı bir təbəqə kimi təqdim edirlər. Bu, cəmiyyətdə haqlı olaraq narazılığa səbəb olur. Hər kəs bilməlidir ki, qanun qarşısında hamı bərabərdir. Heç kimin əlahiddə səlahiyyəti yoxdur.

Dövlət başçısı cənab İlham Əliyev dəfələrlə bəyan edib ki, heç kim toxunulmaz deyil, heç kim müstəsna hüquqlara malik deyil və əlavə imtiyazları yoxdur. Qanun qarşısında hər bir vətəndaş bərabərdir.

## Kimliyindən asılı olmayaraq hər kəs qaydalara riayət etməlidir

**Şahin İSMAYILOV,**
*Milli Məclisin deputatı:*

- Sonuncu prezident seçkilərindən sonra dövlət başçısı Azərbaycanda yeni dövrün başlandığını elan etdi. Bütün sahələrdə islahatlara start verildi. Korrupsiyaya, vəzifə səlahiyyətlərindən sui-istifadə edən şəxslərə qarşı kəskin münasibət ortaya qoyuldu. Bu sahələrdə işlər bu gün də davam edir və ən əsası odur ki, bunun üçün siyasi iradə mövcuddur.

Prezident İlham Əliyevin bu qətiyyətli mövqeyi Azərbaycan xalqı tərəfindən yüksək qiymətləndirilir və insanlar bu siyasəti dəstəkləyirlər. Azərbaycan dövləti qlobal pandemiya dövründə də ölkədə vəziyyəti nəzarətdə saxlamaq, insanların sağlamlıqlarını qorumaq istiqamətində bütün imkanlarından istifadə edir. Təbii olaraq dünyanın əksər ölkələrində olduğu kimi, Azərbaycanda da məhdudiyyətlər tətbiq olunur. Bu məhdudiyyətlərin yeganə səbəbi insanları daha böyük fəsadlardan qorumaqdır. Məhdudiyyətləri tənzimləyən qaydalara isə hər birimiz riayət etməliyik. Burada kimliyindən, tutduğu vəzifədən asılı olmayaraq hər kəsdən çox sadə bir tələb var - qaydalara əməl etmək.

Pandemiya başlanan zaman ölkə rəhbəri xalqa çox dəqiq və düşünülmüş bir mesaj verdi - biz birlikdə güclüyük. Birlikdə güclü olmağın bir tərəfi insanların qaydalara əməl etməsidirsə, digər tərəfi məmurların qlobal pandemiya dövründə düşünülmüş həllər təklif etmələri, Operativ Qərargahın işinə öz səlahiyyətləri çərçivəsində dəstək vermələri və ən əsası qaydalara daha ciddi əməl etmələridir. Əfsuslar olsun ki, bu hallardan düzgün nəticə çıxarmayan və ya çıxarmaq istəməyən bəzi vəzifəli şəxslər özlərini xüsusi imtiyazlı hesab edərək pandemiya dövründə qaydaları pozurlar. Dövlət başçısının siyasi iradəsi hər kəsdən qanunlara əməl etməyi və vəzifə səlahiyyətlərini düzgün icra etməyi tələb edir. Çox təəssüf ki, sabiq deputat İlham Əliyev öz övladına karantin dövründə toy məclisi təşkil edib. Bu, qətiyyən yolverilməz haldır. Karantin dövründə yüzlərlə gəncin toy mərasimləri təxirə salınıb. Əgər sadə insanlar bu qaydalara əməl edirlərsə, deməli, vəzifəli şəxslər, dövlətinə, xalqına, Prezidentinə sadiq olan və dəyər verən adamlar daha ciddi şəkildə əməl etməlidirlər. Lakin onların bəziləri nümunə olmaq əvəzinə, nümayişkaranə şəkildə sanki Azərbaycan dövlətinə meydan oxuyurlar. Bu da nəticəsi. Beləliklə, məhkəmə qarşısına çıxdılar və qanuna uyğun olaraq cəzalarını aldılar.

Yeri gəlmişkən, toy məclisindən yayılan kadrlardan məlum olur ki, orada müxtəlif siyasi söhbətlər də gedib. O söhbətləri edənlər də, Azərbaycan xalqı da yaxşı bilir ki, müasir Azərbaycanın uğurları Ulu Öndər Heydər Əliyevin, hazırkı dövrdə isə Prezident İlham Əliyevin adı ilə bağlıdır.

## Qanun və qaydalara, ilk növbədə, dövlət məmurları, ziyalılar, deputatlar əməl etməlidirlər

**Malik HƏSƏNOV,**
*Milli Məclisin deputatı:*

- Ölkədə koronavirusa yoluxma sayı azalsa da, müəyyən məhdudlaşdırıcı tədbirlər hələ də qüvvədədir. Bu məhdudlaşdırıcı tədbirlər sırasında kütləvi mərasimlərin keçirilməməsi birinci yerdədir. Təsadüfi deyil ki, Məhərrəmlik ayı olmasına baxmayaraq, Aşura mərasimlərinin keçirilməməsi üçün məscidlərin açılmaması qərarı qüvvədə saxlanılıb. Dinin dövlət səviyyəsində olduğu və dövləti din xadimlərinin idarə etdiyi İran kimi ölkədə belə Aşura mərasimlərinin məscidlərdə keçirilməsi qadağan edilib və məscidlər açılmayıb. COVID-19 pandemiyasının qarşısının alınması üçün kütləvi tədbirlərin qadağan olunması vacibdir. Toy, yas mərasimləri pandemiyaya yoluxma sayının artması üçün münbit şərait yarada bilər. Ona görə də Operativ Qərargahın belə tədbirlərin keçirilməməsi haqqında qəbul etdiyi qərara hamı qeyd-şərtsiz əməl etməlidir. Artıq bir neçə gündür ki, ölkədə böyük rezonans doğuran toy mərasiminə görə təşkilatçıların cəzalanması müsbət haldır.

Sabiq deputatın bağ evində keçirdiyi toy mərasimində bir sıra yüksəkvəzifəli sabiq və indiki məmurların iştirakı təəssüfedicidir. Çünki dövlətin qəbul etdiyi qərarların mütləq şəkildə icra olunmasının vacibliyini onlar daha yaxşı bilirlər. Qanunun kobud surətdə pozulmasına görə onlar mənəvi məsuliyyət də daşıyırlar. Bu toy mərasimi cəmiyyətdə ona görə bu qədər böyük səs-küyə, geniş müzakirələrə səbəb olub ki, orada akademiklər, ziyalılar, bəzi sabiq və hazırkı məmurlar iştirak ediblər. Bu, yolverilməzdir və cəmiyyətdə haqlı narazılıq yaradır. Qanunları pozan şəxslərin dərhal və ən sərt şəkildə cəzalandırılması vacib idi. Qanun və qaydalara, ilk növbədə, dövlət məmurları, ziyalılar, Milli Məclisin deputatları əməl etməlidirlər. Qanun qarşısında hər kəs bərabərdir.

*Hazırladı:*
***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***